UOT:82.0
DOI: https://doi.org/10.30546/09081.2025.1.5002

TOPONİMLƏRİN POETİKLƏŞMƏSİNİN ETNOKULTURAL, MENTAL VƏ SOSİAL DƏYƏRLƏRİ

Professor Təranə HACIYEVA
Bakı Mühəndislik Universiteti
tehaciyeva@beu.edu.az
https://orcid.org/0000-0001-6818-3091

Məqalə haqqında məlumat

Məqalənin tarixi
Göndərildi: 2024-09-27
Yenidən işlənmiş formada alındı:2024-11-29
Qəbul edildi:2024-12-02
Onlayn mövcuddur

Açar sözlər:
toponim, etnokultural, sosial dəyər, mental dəyər, poetik.

XÜLASƏ

Dilin bütün leksik vahidlərinin bədii dilə gəlmək səlahiyyətini inkar etmək olmaz. Hətta bədii üslub vahidləri ilə eyni müstəvidə dayanmayan və elmi üslub göstəricisi olan terminlər də obrazlaşmaq imkanına malikdir. Dilin xüsusi leksik layını təşkil edən toponimlər də eyni səlahiyyətlidir, lakin bu dil vahidlərinin bədiiləşmə vəziyyəti bir qədər fərqlidir. Coğrafi ərazini təyin edən, səciyyələndirən və bəzən də obrazlı şəkildə adlandıran toponimlər yaranışından poetik məzmunlu olub və dilin ilk növbədə məişət, bədii, sonra rəsmi, elmi və publisistik üslublarının elementi olub. Toponimlərin belə funksional genişliyinin səbəbi bu dil vahidlərinin milli dünyagörüşünün, kollektiv düşüncənin məhsulu olmasıdır. Milli təfəkkürün ifadəsi olan hər adın sosial, etnokultural və mental dəyər məzmunu kəsb etməsi, həm milli ideologiyanın, həm də məkan bağlılığının rəmzi kimi çıxış etməsi ictimai-tarixi qanunauyğunluqdur. Toponimlər mənsub olduğu xalqın torpaq sevgisinin təmsilçisidir, lakin bu fakta əsaslanaraq milli ideologiyanın yalnız coğrafi ərazinin vəsfi ilə ifadə edilməsi qənaətinə gəlmək düzgün deyil. Bədii toponim yalnız tərənnüm məqsədi daşımır, ideoloji məzmun göstəricisi rolunda çıxış edir. Bu qənaəti toponimlərin sosial, siyasi, poetik təfəkkürün dərketmə mərhələlərindən süzülərək gəlməsi və nəticədə fəlsəfi-semantik tutuma malik olması sübut edir.

ETHNOCULTURAL, MENTAL AND SOCIAL VALUES OF THE POETICALIZATION OF TOPONYMS

ABSTRACT

The power of all lexical units of the language to become artistic cannot be denied. Even terms that do not stand on the same level as artistic style units and are indicators of scientific style have the ability to be figurative. Toponyms, which constitute a special lexical layer of the language, also have the same power, but the state of artisticization of these language units is somewhat different. Toponyms, which define, characterize and sometimes figuratively name a geographical area, have had a poetic content from their inception and have been an element of the everyday, artistic, and then official, scientific and journalistic styles of the language. The reason for such functional breadth of toponyms is that these linguistic units are the product of national worldview, collective thought. It is a socio-historical law that every name, which is an expression of national thinking, acquires ethnocultural, social and mental value content, and acts as a symbol of both national ideology and spatial connection. Toponyms are representatives of the love of the land of the people to which they belong, but based on this fact, it is not correct to conclude that national ideology is expressed only by describing the geographical area. Artistic toponyms do not only have a glorifying purpose, but also act as an indicator of ideological content. This idea is proven by the fact that toponyms filtered through the stages of understanding of social, political, poetic thinking and, as a result, have a philosophical-semantic capacity.

Keywords: toponym, ethnocultural. social value, mental value, poetics.

ЭТНОКУЛЬТУРНЫЕ, МЕНТАЛЬНЫЕ И СОЦИАЛЬНЫЕ ЦЕННОСТИ ПОЭТИЧНОСТИ ТОПОНИМОВ

АННОТАЦИЯ

Нельзя отрицать способность всех лексических единиц языка воплощаться в художественном выражении. Даже термины, не стоящие на одном уровне с единицами художественного стиля и являющиеся показателями научного стиля, обладают способностью быть образными. Топонимы, составляющие особый лексический пласт языка, имеют тот же авторитет, но художественный статус этих языковых единиц несколько различен. Топонимы, определяющие, характеризующие, а иногда и образно именующие географическую территорию, с самого начала имели поэтическое содержание и являлись элементом сначала повседневного, художественного, а затем официально-делового, научного и публицистического стилей языка. Причина такой функциональной широты топонимов заключается в том, что эти языковые единицы являются продуктом национального мировоззрения и коллективного мышления. Социально-исторический закон заключается в том, что каждое имя, являющееся выражением национальной мысли, приобретает этнокультурное, социальное и ментальное ценностное содержание и выступает символом как национальной идеологии, так и пространственной принадлежности. Топонимы отражают любовь народа к земле, которому они принадлежат, однако неверно делать из этого факта вывод, что национальная идеология выражается только через описание географической территории. Литературный топоним не только служит целям прославления, но и выступает индикатором идеологического содержания. Эта идея подтверждается тем, что топонимы возникают на этапах осмысления общественной, политической и поэтической мысли и в конечном итоге имеют философско-смысловое значение.

Ключевые слова: топоним, этнокультурная, социальная ценность, ментальная ценность, поэтичность.

GİRİŞ

Tədqiqatın aktuallığı. Toponimlərə özünəməxsusluğu verən başlıca amil bu dil vahidlərini tədqiq edən sahənin üç elmin kəsişməsində olmasıdır. Bu faktor öz təsdiqini əksər toponimik problemlərin linqvistika, tarix və coğrafiya elmlərinin vəhdətində həll edilməsi ilə tapır. Müxtəlif elmlərin vəhdətində həllini tapan məsələ və anlayışların zəngin dəyərlərə və xüsusi tədqiqat aktuallığına malik olması elmi qanunauyğunluqdur. Belə bir qanunauyğunluq toponimlərin poetikləşməsinin etnokultural, sosial və mental dəyərlərinin tədqiqini aktuallaşdırır.

Tədqiqatın yeniliyi. Toponimikanın ən az tədqiq edilən bölməsi poetik toponimiyadır. Toponimlər mənsub olduğu etnosun tarixinin, məskunlaşdığı torpaqların, kulturoloji görüşünün öyrənilməsi üçün optimal mənbədir. Bu dil vahidlərinin türk xalq şeirlərində işləklik qazanmasını, poetikləşməsini şərtləndirən amillərin etnokultural, sosial və mental aspektləri ilk dəfə olaraq bu məqalədə tədqiq edilir.

Tədqiqatın metodu. Məqalədə empirik, təsviri, müqayisəli və analitik təhlil metodlarından istifadə edilib.

Tədqiqatın məqsədi. Toponimlər sosial reallığın, eyni zamanda ideologiyanın fəlsəfi ifadəçisidir. İdeologiya yalnız coğrafi əraziyə bağlılıqla yetinə bilməz, milli dəyərlər toplusu olan mənəvi ərazi də bura daxildir. Məqalənin məqsədi toponimlərin yalnız coğrafi ərazilərin adlandırılması məhsulu kimi deyil, torpaq sevgisi ilə yanaşı etnokultural, sosial, mental dəyər kəsb edən anlam şəklində, milli ideologiyanın ifadəçisi kimi də təqdim etməkdir.

Tədqiqatın nəticəsi. Türk təfəkküründə toponimlər coğrafi ad olmaqla yanaşı digər vacib missiyaları da yerinə yetirir. Milli kimlik, soyabağlılıqdan törənən missiya toponimləri xalq təfəkküründə milli-mənəvi dəyərə, ideoloji anlayışa, toxunulmazlıq rəmzinə cevirir. Sosial və kultural xalq təfəkkürü məhsulunun bədii dil vahidinə çevrilməsi qanunauyğun nəticədir. Bədiiləşən toponimlər ilk baxışda tərənnüm və vəsf ifadəçisi kimi görünsə də, bu dil vahidləri özündə sosial, tarixi, etnofəlsəfi dəyərləri birləşdirir. Milli təfəkkür məhsulu olan toponimlər

ədəbi dilin bütün funksional üslublarının işlək məhsulu olduğuna görə poetikləşməsi bu dil vahidlərinin ciddi etnokultural, sosial və mental dəyər ifadəçisi olmasını təsdiq edir. Poetikləşmə toponimlərin onomastika elminin toxunmadığı polisemantik, denotativ, konnotativ xüsusiyyətlərini meydana çıxarır. Toponimlərin poetikləşməsinin sosial və linqvistik mahiyyətinin mühüm komponenti sosial şərtlər, standartlara uyğunluq və standartdan yayınmadır. Toponimlərin formalaşmasına və poetikləşməsinə təsir edən mental amillərə həm də əhalinin etnokultural dəyərləri daxildir.

ƏSAS HİSSƏ

Toponimlərin bədii dilə gəlməsi poetik keyfiyyətdir, lakin bu keyfiyyətdən irəli olan digər bir amil bu dil vahidlərinin mühüm ictimai-siyasi və tarixi dəyərə malik olmasıdır. Belə ki, bədii toponimlər mənsub olduğu xalqa xas bədii-coğrafi xəritə yaradan və həmin sərvəti əsrlərin süzgəcindən keçirərək müasir dövrə çatdıran tarixi-ədəbi faktdır. Toponimlər təsadüfün, ixtiyari adlandırmanın nəticəsi deyil. "Çox qədim zamanlardan başlayaraq insanlar məskən saldıqları ərazilərə, onların yaxınlığındakı ayrı-ayrı obyektlərə müxtəlif adlar vermişlər. Nəticədə coğrafi adlar - toponimlər formalaşmağa başlamışdır. Demək, hər hansı bir tarixdə, müəyyən bir məkanda, hər hansı bir dildə ünvan yaranmışdır" (Rüstemli, 2016:3). Toponimlər qədim dil vahidləridir və cəmiyyətin ilkin mərhələlərindəki məzmun bəsitliyi insan təfəkkürünün yalnız fərqləndirmə missiyasının məhsulu olmasından irəli gəlir. "Toponimlərin funksiyalarının özünəməxsusluğu, bu vahidlərin obyektləri adlandırmaq və səciyyələndirmək qabiliyyəti onlara müxtəlif yanaşmaları şərtləndirmişdir. Toponim ölkə haqqında biliklər xəzinəsidir, mədəni-tarixi informasiyanın qoruyucusudur" (Həbibli, 2012: 6). Belə qanunauyğunluğun nəticəsidir ki, "dilin lüğət tərkibində ad bildirən sözlər mühüm yer tutur" (Teymurlu, 2020:26). Toponimlər yalnız həyatımızın bir hissəsi deyil, həm də tarixi hadisələrin, cəmiyyətin inkişaf şərtlərinin, baş verən proseslərin şahidləridir. Buna görə "toponimika tarix, coğrafiya, diyarşünaslıq kimi digər elmlərlə sıx bağlıdır" (Колесникова, 2021; 1117).

Cəmiyyətin sonrakı inkişaf məthələlərində yaranmış toponimlər hər bir milli dil üçün eyni missiya daşıyıcısıdır. Yəni yalnız sırf təsvirə xidmət etmir. Bu dil vahidləri əraziləri bir-birindən fərqləndirən ad deyil, geniş məzmunlu informasiya ötürücüsüdür, həm də coğrafi reallığı adlandıran nominasiya modelidir. Toponimlər mənsub olduğu xalqın və dilin tarixinin ayrı-ayrı aspektlərini izləmək üçün istifadə edilə bilər və substrat mahiyyətinə görə hər hansı bir ərazinin əvvəlki sakinlərini hipotetik olaraq təyin edə bilər. Müşahidələr göstərir ki, coğrafi adlar dilxarici amillərin, direktiv göstəricilərin, siyasi-ideoloji istiqamətlərin təsirinə daha tez məruz qalan dil vahidləridir. Toponimlərin politoloji faktor kimi tədqiq edilməsi bu xüsusiyyətdən qaynaqlanır və təsadüfi məzmun kəsb etmir (Belenov, 2023: 48-49). Analoji təcrübə Azərbaycan Respublikasında milli dirçəliş dövründə və müstəqilliyin bərpa edilməsindən sonra yaşanıb: Vartaşen – Oğuz, Qutqaşen – Qəbələ, Puşkin – Biləsuvar, Jdanov – Beyləqan, Mirbəşir - Tərtər. Linqvopolitoloji və etnolinqvistik meyarlar sayəsində dəyişikliyə uğramış coğrafi adların mənəvi və milli hüququ bərpa edilib. Bu adların ilkin formalarının tarixi və ədəbi mənbələrdə saxlanması, eyni zamanda bədii dilə gətirilməsi onların orijinallığının bərpasına imkan verən faktorlardandır. Tarixin müxtəlif mərhələlərində dünyanın dil təcrübəsində müşahidə edilən sosiolinqvistik və linqvopolitoloji hadisələr toponimlərin linqvistik mahiyyətlə yanaşı sosial, kulturoloji və politoloji təbiətə malik olmasından xəbər verir.

Toponimlər insanın mühit, təbiət, sosial reallıqlar haqqında idraki və affektiv təsəvvürlərinin ifadəsini göstərən məkan adlarıdır. Bu səbəbdən dilin leksik layının əhəmiyyətli vahidləri sayılmaq səlahiyyətinə malikdir və bədii dilin tropları kimi istifadə edilmək imkanlarını da əhatə

edir. Eferqren də toponimlərin poetikləşməsi barədə belə bir qənaətdədir ki, toponimlərin ümumi ismə çevrilməsi həm semantik dəyişiklikdir, həm də metaforlaşma, metonimləşmə, sinekdoxa və digər bədii təsvir və ifadə vasitəsinə çevrilmədir (Efvergren, 2023). Qanunauyğun olaraq, toponimlərin mahiyyət və məzmunu bu dil vahidlərinin poetikləşməsinin sosial və mental dəyərlərə malik olmasından xəbər verir. Toponimlərin poetikləşməsinin sosial və linqvistik mahiyyətinin mühüm komponenti sosial şərtlər, standartlara uyğunluq və standartdan yayınmadır. Toponimlərin formalaşmasına və poetikləşməsinə təsir edən mental amillərə, ilk növbədə, əhalinin etnokultural dəyərləri daxildir. Kollektiv təfəkkür məhsulu olan bu dil vahidləri etnokultural aspektin bariz nümunəsidir. Mental amillər etnik sosiumun məntiqi təfəkkürə, yaxud yaradıcı təfəkkürə əsaslanmasından irəli gələn keyfiyyətdir. Siyasi mühit, geopolitoloji amillər toponimlərin formalaşmasında öz sözünü deyə bildiyi üçün məkan adlarında mental və sosial qanunauyğunluqların pozulması da müşahidə edilir. Belə ki, politoloji amillərin təsiri ilə yaranan toponimlərdə etnokultural standartlardan yayınma, siyasi standartlara uyğunlaşma baş verir. Toponimlərdə tez-tez müşahidə edilən linqvistik qoşalaşma hadisəsi də sosial qanunauyğunluq sayəsində ilkin adın reallaşması ilə yekunlaşır. İlkin adın qoşa adı üstələməsi mental və sosial dəyərdir və əsas adın dayanıqlığının göstəricisidir. Toponimin ilkin adının dayanıqlığını təmin edən əsas faktor ilkin adın rəsmi sənədlərdə, milli yaddaşda qorunub saxlanmasıdır. Növbəti faktor coğrafi məkanın maddi və mənəvi ərazi məzmunu kəsb etməsidir. Digər faktorlar ilkin adın ictimai-tarixi hadisə ilə, dini-fəlsəfi görüşlə və şəxsiyyətlə əlaqəli olmasıdır. Daha bir amil kimi adlandırmanın dövri əhəmiyyətini qeyd etmək mümkündür. İlkin adın dayanıqlığında mental və sosial faktorlar da kifayət qədər əhəmiyyət daşıyır.

Müşahidələr göstərir ki, toponimlərin formalaşmasıında məntiqəuyğunlaşma əsaslı konvergent və yaradıcı məzmunlu divergent təfəkkürün vəhdəti daha effektli olur. Məntiq və yaradıcılıq anlayışlarının vəhdətindən törənən dual mahiyyət tarixin hər dönəmində toponimləri formalaşdıran əsas göstərici kimi çıxış edir, bu vahidləri mənəvi keyfiyyət daşıyıcısına çevirir. Mənəvi keyfiyyətin ictimai-siyasi faktorların təsiri ilə ya aşınması, ya da əksinə yüksək mühafizəkarlıqla hifz edilməsi özü də sosial və mental reallıqdır. Bu baxımdan inteqrasiya, dinamik elmi-texniki tərəqqinin boyuna biçildiyi bir dövrdə toponimik sistemə təsirsiz ötüşməyən mənəvi yaxınlıq və uzaqlıq maraq doğuran məsələlərdəndir. Müasir dünyanı səciyyələndirən qloballaşmanın digər bir prosesi sürətləndirməsi inkaredilməz faktdır. Həmin proses dünya xalqlarının sahib olduqları oxşar və eyni dəyər müstəvisində mənəvi cəhətdən bağlanması ilə reallaşır. "Möhtəşəm tarixi keçmişə malik olan Azərbaycan və Türkiyə türklərini bu mənada açıq müstəvidə dövlətçilik ənənələri, tarixi bağlılıq, iqtisadi, siyasi məram birliyi bağlamaqla, bu dövlətləri "bir millət, iki dövlət" kimi bir-birinə yaxın və doğma etmişdir. Bu prosesin paralelində dayanan və onu daha da sürətləndirən mənəvi bağların mövcudluğudur. Bu istiqamət mədəniyyət və mədəniyyətin ən qədim forması olan folklorla müəyyənləşir" (Azərbaycan-Türkiyə mənəvi birliyinin simvolu - aşıq-ozan sənəti, 2013:3). "Müasir türk aşıq şeirinin təmsilçilərindən "məmləkət sevgisi gəlir imandan" deyən Samsunlu Aşıq Kemali Bülbülün Türkiyə sevdası ilə bərabər, bütün türk dünyasına olan sevgisini dilə gətirən şeirləri" (Hacıyeva, 2014: 172) eyni dəyər bağlılığının sübutudur. Mənəvi bağlar cəmiyyətin etnokulturoloji sisteminə xas nümunələrdə müşahidə edilir. Bu baxımdan klassik xalq şeirləri türk və Azərbaycan xalqlarının mənəvi bağlarını bariz şəkildə əks etdirən bədii faktlardır.

Poetik toponimlər yaranma və reallığı əksetdirmə baxımından müxtəlif məzmuna malikdir. Müəlliflərin fərdi yaradıcılıq məhsulu olan "uydurma toponimlər, real toponimlər və real topo-

nimlərin təhrif edilmiş modelləri" (Никольский, 2003:45) məzmun və məqsəddən irəli gəlir. Çünki bədii dil vahidləri təsadüfə xidmət etmir. Fikrin ifadəsi üçün müraciət edilən hər bir ifadənin, deyimin arxasında poetik-fəlsəfi anlam dayanır. Uydurma toponimlər subyektiv mahiyyət daşıdığına görə onların sosial və mental aspektlərinin nə dərəcədə reallıq kəsb etməsi sual altındadır, bu dil vahidləri müəllifin fərdi üslubunu və fərdi poetik təxəyyülünün tədqiqi üçün mənbə ola bilər. Obyektiv poetik toponimlərin etnokultural, mental və sosial dəyərləri inkaredilməzdir. Bədii müəllif xalq şeiri nümayəndəsi olduqda isə oxucu hər ifadəyə xüsusi həssaslıqla yanaşaraq sətiraltı mənaların sehrini dərk etməyə çalışır. Çünki xalq şeiri fərdlə yanaşı həm də xalqın sosial, siyasi, kulturoloji təfəkkürünün poetik ifadəsidir. Türkdilli xalq şeirləri həm milli düşüncə tərzini səsləndirən, yayan, yaddaşlara həkk etdirən söz sənətidir, həm də sosial, mental dəyərdir, tarixi elmi mənbədir. Çünki türk təfəkküründə toponim yalnız coğrafi ərazi deyil, həm də mənəvi ərazidir. Milli təfəkkür, etnik yaddaş, tarix və kimlik öz əksini hər bir etnosun mənəvi dəyərinin ifadə edildiyi xalq şeirlərində tapır. Xalq şeirləri milli dünyagörüşünü, milli xisləti təqdim edən aydın aynadır, Qurbani, Aşıq Veysəl, Dadaloğlu şeirlərində olduğu kimi. Bu baxımdan dil daşıyıcılarının kollektiv təfəkkürünün etnik-kulturoloji sisteminin göstəricisi olan toponimlərin bədii obraz, kommunikativ dəyər şəklində poetik dilə gətirilməsinin hansı məqsədlərə xidmət etməsi, hansı klassik ideologiyadan bəhrələnməsi maraq doğuran məsələlərdəndir. Çünki adlandırma nə qədər dil və dil tarixi hadisəsidirsə, ondan da artıq milli-mənəvi, mental və türkçülük ruhunu təqdim edən hadisədir, türklərin hansı torpaqlarda nə zamandan məskunlaşmasını sübut edən danılmaz faktdır. Əlimizdə olan hər bədii mətn cəmiyyətin, etnosun tarixi göstəricisi və xalqın yaddaş kitabıdır, tarixin tarixiliyinin sübutudur. Deməli, bədii dildə obrazlaşmış toponimlər ictimai-siyasi hadisədir, tariximizin poetik ifadəsidir. Türkün torpağa bağlılığını göstərən faktordur. Folklor nümunələri sübut edir ki, türk torpağa və məkana sıx bağlıdır və onun üçün vətənçilik ideologiyası ilk növbədə məskunlaşdığı təbii məkandan, dağ, çay, dəniz, göldən qaynaqlanır. Həmin bağlılıq səbəbindən ümumi isimlər tezliklə xüsusiləşərək toponimləşir, onomastik element olur və vəsf obyekti kimi bədii obraza çevrilir. Eyni bir halın daha rasional formasının müxtəlifsistemli dillərə aid xalq şeirləri üçün də xüsusi aktuallıq kəsb etdiyini demək mümkündür. Lakin türk xalq şeiri üçün xarakterik olan toponim obrazlar öz missiyalarını yalnız vəsf və tərənnüm obyekti olmaqla bitirmir, həm də poetik-fəlsəfi koda malik olan dil vahidləri kimi səciyyələnir. Xalq və etnosun tarixin istənilən mərhələsinə xas ictimai-siyasi, kulturoloji dünyagörüşü, həyatı, məişəti, adət-ənənələri barədə məlumatı həmin dövrə və məkana aid xüsusi adlardan, o cümlədən, toponimlərdən almaq mümkündür. "Toponimiya məlumatları xalqların yarandığı dövrə aid etnik tarixi ilə əlaqəli mübahisəli məsələlərin həllinə kömək edir" (Turdibekov,2021:23). Eyni zamanda bədiiləşmiş coğrafi adların tədqiqi həm də bədii mətn texnologiyası ilə bağlı məqamları aşkarlayır, bədii müraciət və bədii tərənnüm texnikasının incəliklərini üzə çıxarır. Sübut edir ki, toponimlər bədii mətnin texniki cərcivəsini aşmadan polisemantik və polistruktur bütövlər yaradılmasının qamunauyğun dil vahidi kimi çıxış etmək imkanına malikdir. Poetik toponim mətnin ekspozisiyasını təşkil etdikdən sonra əsas məzmun fonu rolunda çıxış edir, məkan adı ilə sosial həqiqət yaradır. Poetik-sosial missiyanın polisemantik məzmunda yerinə yetirilməsində oba, kənd adı bildirən metonim-toponimlər daha uğurlu alınır. Bir ad sosial, mental və etnokultural bütövü ifadə edir. Məkanın toponimik koduna çevrilir:

Kokuyor burnuma Sivralan köyü,
Sərindir dağları, soyuqdur suyu.
Yar məndil göndərmiş yadigar deyir
Gözünün yaşını sil deyə yazmış (Aşıq Veysəl).

Bədii dilə gələn toponimlər məkanın poetik inkişafını təmin etdiyinə görə digər bədii dil vahidlərindən üstünlüyü ilə fərqlənir. Ərazinin nominativ modelinin təyinedici xüsusiyyətindən istifadə edən söz sərrafı sürətlə bir nominasiyadan digərinə keçir, oxucunu ustalıqla fərqli məkanlara daşıyır. Nəticədə fərdi nominasiya modelini yaratmağa müvəffəq olur. Belə toponimlərin təyinetmə vektoru genişspektrli olur, ad bir dəfə səsləndirilir, oxucunun təxəyyülündə zəngin mental məzmun yaranır, onu fəlsəfi düşüncəyə sövq edir:

Çıxarım Bozok dağına
Avşar eli görünürmü?
Allah bir de, işi iki
Getdi, amma gəlinirmi? (Dadaloğlu).

Nə üçün məhz Bozok dağı? Təsəvvürə gələn ilk mülahizə toponimin qədimliyi olur. Lakin misralarda alt düşüncə qatının olması inkaredilməz həqiqət kimi oxucuya beyin həmləsi edir, bədii fakt qarşısında qoyur. Bədii-fəlsəfi düşüncədə Bozok adının təsadüf deyil, ana xətt kimi çıxış etməsi alt məzmun təhlilini tələb edir. Mistik düşüncə ifadəsi kimi müəllif onlarla digər adın, elin adını məzmun hədəfi edə bilərdi. Şeirdə bədii-fəlsəfi, etnokultural düşüncə ifadəçisi olması toponimin sakral məzmununun xəbərçisidir. Dünya həqiqətlərini bilmək üçün şərqdən qərbə enən düzənlikdə yüksələn Bozok dağına çıxmağın səbəbləri oxucunun marağını çəkir.

Dünyanın fərqli dövlətlərində tarixən yaranan və inkişaf edən terminoloji leksikanın çoxsaylı etnik, mental, kultural keyfiyyət göstəricilərini əks etdirməsi şübhə edilməyən məsələlərdəndir. Toponimlərin regional tədqiqi millət və xalqların milli maddi və mənəvi abidələrinin üzə çıxarılmasına, ümumbəşəri fonda vahid sosial mədəni görüntülərin yaranmasına öz əhəmiyyətli payını verir. Qeyd etmək lazımdır ki, toponimlərin işlək olduğu və məkana bağlılığı əks etdirən mətnlərin məzmunu sübüt edir ki, türk təfəkküründə məkansevərlik keyfiyyəti etnik ideologiyaya xələl gətirmir, əksinə forma və məzmun üzvi vəhdət təşkil edir.

Toponimlərin poetikləşməsi müxtəlif məqsədlərlə bağlı ola bilər. Tarixi, ictimai-siyasi həqiqətlərin bədii dillə çatdırılması, vətənpərvərlik hisslərinin tərənnümü, coğrafi ərazilərin, landşaftların bədii xəritəsinin verilməsi, doğma təbiətin, etnokultural dəyərlərin vəsfi həmin məqsədlərə daxildir. Poetikləşmə toponimlərin onomastika elm sahəsi tərəfindən aşkarlanmayan polisemantik, denotativ, konnotativ xüsusiyyətlərini meydana çıxarır. Hər hansı bir dil vahidi bədii müəllifin həmin adda adi insanın görə bilmədiyi məzmunu, keyfiyyəti, işığı gördüyü zaman poetikləşir. "İnsanlar rəngi demək olar ki, eyni şəkildə fiziki bir xüsusiyyət olaraq görürlər, lakin rəng komponentinin şüuri və konnotativ mənası, bəzi mənalar universal ola bildiyi halda, müxtəlif mədəniyyətlərdə fərqli ola bilər" (Abat,2023: 217). Eyni bir fikir nominasiya məhsulu, maddi və mənəvi mədəniyyət vahidi olan toponimlər üçün də keçərlidir. Təsadüfi deyildir ki, "toponimikanın təhlili toponimlərin mədəni və idrak xüsusiyyətlərinə ənənəvi yanaşmanı tələb edir" (Tlegenova, 2022).

Məqsədindən asılı olmayaraq, toponimlərin poetikləşməsi bu dil vahidlərinin unikallığını və universal mahiyyətini ortaya çıxarır. Bədii konteksdən kənarda o qədər də nəzərə çarpmayan xüsusiyyətlər bədiiləşən toponimdə bariz şəkildə ifadəedilmə imkanı qazanır. Toponim informasiya ötürücüsü olmaqla bərabər alt məzmun keyfiyyətlərinə də malikdir. Həmin dil vahidlərinin poetikləşməsi nominativ, etonimik fəlsəfə, daxili və xarici harmoniya kimi alt məzmun keyfiyyətlərinin dərk edilməsinə rəvac verir. Bəzən müəllif özü də fərqinə varmadan vəsfi-təsvir sayəsində poetik kontekstual bilgi ötürücüsü olur. Toponimləri poetik təsvir elementi

kimi digər leksemlərdən fərqləndirən də bu dəyərdir. Mübaliğəvi müqayisə etnokultural, mental, sosial və ən başlıcası tarixi informasiyanı əsrlərin süzgəcindən keçirməyə müvəffəq olur. Maddi və mənəvi mədəniyyət nümunəsi kimi qədim tarixə malik olan toponimlərdə bu imkan ikiqat artıq olur. İllərin süzgəcindən keçib gələn nominativ informasiya etnokultural, tarixi dəyər şəklində təzahür edir. XVI əsrdən günümüzə körpü salan Qurbani şeirindən faktoloji bilgi nümunəsi bunu sübut edir:

Gözəllikdə kimdə yoxdu təhrində
Onunçun çəkərəm yarın qəhrin də.
Nə İran, nə Turan, Gəncə şəhrində
Canlar alan o nigarı görmüşəm (Qurbani).

Misradaxili silsilə təşkil edən toponimlər yalnız poetik səciyyəli müqayisəli sadalama missiyası yerinə yetirmir, tarixi, etnokultural məzmun kəsb edir, etnik məskunlaşma faktları verir. Eyni bir məzmun müəllifin aşağıdakı şeirinin sosial və mental məzmun xəttini təşkil edir:

Dağlarda maralsan, çöllərdə ceyran,
Ordubad, Naxçıvan boyuva qurban.
Tamaşaya gələr cümlə Gülüstan,
Külli Dağıstana vermərəm səni.

Bədii toponimik xəritə real tarixi faktlara əsaslanır, coğrafi anlamda bir-birindən çox uzaq məkanları tarixi, sosial və vahid etnokultural məzmunda birləşdirir. Qurbani mentallığı timsalında xalq şeiri xalqın səsi, sosial həqiqətlər tribunası missiyasında orta əsrlər Azərbaycanının qədim, doğma və tarixi ərazilərinin tutarlı, faktoloji bədii sübutu olur. Bədii dil vahidi olmasına birbaşa imkan verən toponimlərin arqumental və kontekstual məzmunudur. Arqumental, kontekstual və faktoloji məzmun toponimlərin üçlü ifadə formasına və struktural keyfiyyətlərə malik olmasından irəli gəlir. Belə ki, toponimi leksik vahid kimi xüsusiləşdirən şərtlərə onun təbiət faktoru kimi səciyyələnməsi, koqnitiv mental əlamət, koqnitiv mental predikatlıq məzmunlarına malik olmasıdır. Bədii dil nümunəsindəki İran, Gəncə nominativ funksiyada təbiət faktorudur. Turanla bir cərgəyə gətirilməsi İran, Turan, Gəncə toponimlərini təfəkkür vahidinə çevirməklə onlara koqnitiv mental əlamət qazandırır. Müqayisəli sadalama intonemi inkar modallığı ilə kəsişərək həmin toponimlərdə koqnitiv mental modallığı yaradır.

Göründüyü kimi, toponimik leksikanın sosial, mental və etnokultural təbiəti linqvistik keyfiyyəti üstələyir. "Hər bir dilin toponimik terminologiyası kultural dəyərlərin rekonstruksiyasına imkan verir" (Купцов,2018:208). Hər əsrə xas bədii mətndə toponimlərin bu xüsusiyyətinin təzahürünü görmək mümkündür. Çünki istənilən toponim yaradılışında "tarixi şəraiti, coğrafi mühiti" (Мурзаев,1974:80) hifz edir. Elmi mənbələrdə toponimlərin "ölkələrin poetik tərtibatı" (Волкова,2018) kimi səciyyələndirilməsi təsadüfi deyil, reallığı təsdiq edən mülahizədir.

Toponimlərin bədii dilə gəlməsi milli ideologiyanın yalnız məkan adlarının vəsfi və tərənnümü ilə məhdudlaşdırılması fikrinə qarşı çıxan ədəbi-bədii reallıqdır. Məkanın poetik vəsfi, metaforik öyünmə mental məhdudluq deyil, əksinə etnokultural, tarixi, sosial və mental reallıqdır, dəyərdir. Xalqın mənsub olduğuna, sələflərinin varislərə ötürdüklərinə verilən vətənçilik dəyəridir.

İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT:

1. Abat, Sh. (2023). Ethnocultural Originality of Color Toponyms in Turkic Folklore. Eurasian Journal of Applied Linguistics, 9(3) p. 216-225
2. Azərbaycan-Türkiyə mənəvi birliyinin simvolu - aşıq-ozan sənəti. (2013). Bakı: Mütərcim. 136 s.
3. Belenov, N. (2023). Toponymy and politics, geographical names as an influence factor. Scientific revolutions: essence and role in the development of science and technology. Sterlitamak, Russian Federation Agency of international researchs. p. 48-49.
4. Efvergren, C. (2023). Names of places in a transferred sense in English. Legare Street Press (July 18, 2023) 136 p.
5. Hacıyeva, M. (2014). Ədəbi qaynaqlar. Bakı: Elm və təhsil. 242 s.
6. Həbibli, R. (2012). Toponimlər linqvokulturoloji fenomenlər kimi. Bakı Universitetinin Xəbərləri. № 1. s. 5-11.
7. Колесникова, И. (2021). Роль топонимов в художественном тексте. "Экономика и социум" №12(91) с. 1117-1120.
8. Купцов, А. (2018). Топонимы как отражение социокультурного облика регионов Португалии. Геополитика и экогеодинамика регионов, 4 (14), с. 208–219
9. Мурзаев, Э. (1974).Очерки топонимики. Москва: Мысль, 382 с.
10. Никольский, А. (2003). О рязанских топонимах в произведениях А. И. Куприна // Вестник Рязанского Государственного Университета. № 1 (9). с. 44-51.
11. Rüstemli, E. (2016). Zengezurun toponimleri. Tarixin izi. Sumqayıt: Zeka Print, 444 s.
12. Teymurlu, Z.(2020). Azərbaycan dilinin dialekt leksikası. Bakı: BMU, 122 s.
13. Tlegenova, G. (2022). Cultural and Cognitive Characteristics of Toponyms in Religious works. https://www.google.com/url?sa=i&url=https%3A%2F%2Fbulletin-philology.ablaikhan.
14. Turdibekov, M. (2021) Toponyms as a Cultural Value Heritage International Journal on Integrated Education.Volume 4, Issue 6. p. 22-24
15. Волкова, Н. (2018). Топонимика и краеведение. Русский язык в школе. № 7. с. 48-53.